# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ROL DAVRANIŞININ DETERMİNANTLARI

**Ofeliya Əlizadə,**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
E-mail: ofeliya.alizadeh@gmail.com

**Rəyçilər:** *psixol.ü.fəls.dok.* M.N. Mustafayev,
*psixol.ü.fəls.dok.* E.A. Piriyeva

***Açar sözlər:*** *davranış, tropizm, taksis, refleks, reaksiya, instinkt, imprintinq, öyrənmə, tələbat, motiv, davranışın nizamlanması*

***Ключевые слова:*** *поведение, тропизм, такцисс, рефлекс, реакция, инстинкт, импринтинг, научение, потребность, мотив, регуляция поведений*

***Key words:*** *behavior, tropism, tactic, reflex, reaction, instinct, imprinting, learning, need, motive, regulation of behaviors*

Qarşımda 4 yaşlı uşaq oturub. Onu sizə şərti olaraq "Eldar" kimi təqdim edirəm. Eldarla görüşümün məqsədi yenə də yoldaşları ilə arasında yaranmış münaqişədir. Səbəb Eldarın davranışındakı aqressiya, müxtəlif situasiyalarda təzahür etdirdiyi qeyri-adekvat davranışdır. Göstərdiyim səbəblər üzündəndir ki, demək olar hər gün birgə olduğu qrup yoldaşları da, öz valideynləri də ondan şikayət edirlər. Çarələri mənə qalıb, mən isə hələ düşünür, çıxış yolları axtarıram. Bildiyim bir şey var: indiyə qədər başqa uşaqlara tətbiq etdiyim vasitələr bu dəfə kömək etməyəcək, çünki vəziyyət daha ciddidir. Söhbət davamlı qaydada pozulan delikvent davranışdan gedir.

Təcrübədə buna bənzər, müxtəlif xarakterli situasiyalarla üzləşirik. Uşağın psixi inkişafında genetikadan gələn xassələrdə, eləcə də yaşadığı ailənin tərbiyə mühitində formalaşmış bir çox xüsusiyyət, keyfiyyət, ünsiyyət və münasibət tərzində neqativ cəhətlər varsa, ancaq uşaq bunları özünün davranışında "pərdələməyi" bacarırsa, onun kiçik, kövrək sosiumunda ciddi narahatlıqlar da yaranmır. Əksinə, əgər bu neqativlərin hər hansı biri zəif formada olsa belə davranışda təzahür edirsə: yoldaşlara kobud yanaşır, təhqir edir, aqressiya göstərir, yaşlının tələb və tapşırıqlarına məhəl qoymur, özünü yaşından böyük, yaxud kiçik aparır, bir sözlə, davranış qaydalarına əməl etmirsə, həm onun özü, həm də əhatəsindəkilər üçün problemlər yaranır. Təəssüf ki, son illərdə belə halların sayı durmadan artır. Əvvəllər bunu pedaqogikada - ərköyünlük, hazırda isə daha çox davranış pozuntusu (deviant davranış) kimi izah edirlər. Bəs, əslində səbəb nədir? Uşağın davranışı niyə pozulur? Onun kökündə nələr durur və onun determinantları hansılardır? Bu kimi problemlərlə üzləşdikdə səbəbini harada axtarmalıyıq?

Üzləşdiyimiz bu kimi çoxsaylı suallar uşaqların rol-davranışı problemini aktuallaşdırır. Biz də davranış aktını aktual problem hesab edərək hələ məktəbəqədər yaş dövründə onun nizamlanmasının təbii qanunauyğunluqlarını və sosial şərtlərini öyrənməyi qarşımıza məqsəd qoyduq. Problemin köklərini axtararaq dərinlərə, fiziologiya, psixofiziologiya, zoopsixologiya sahəsindəki tədqiqatlara gedib çıxdıq.

Həmin tədqiqatlardan aydın oldu ki, uşağın davranışında təzahür edənlərin korreksiyası deduktivlik deyil, induktivlik tələb edir. Məktəbəqədər yaşlı uşaqların davranışının nizamlanması üçün hər birinə fərdi yanaşma, qrup işində isə diferensiallıq tələb olunur. Uzun illər məktəbəqədər tərbiyə sistemində işləmiş praktiklər, pedaqoqlar: "Bunu həyata keçirmək ya çətin, ya da mümkünsüz olur?" - deyə bilərlər. Haqlıdırlar! Həqiqətən də, 20 nəfərlik uşaq qrupunda bugünkü prinsiplərlə, metodologiya və metodlarla, yalnız pedaqoji yanaşmalardan, "kasıb", əlverişsiz didaktikadan istifadə edərək təlim-tərbiyə işinə belə yanaşmaq mümkün deyil. Bizim mövqeyimiz isə, başqadır: uşağın davranışını düzgün istiqamətləndirmək üçün onu tanımaq və öyrənmək lazımdır. Burada psixoloji biliklərin müstəsna rolu var. Yalnız bu biliklərə sahib olmaqla uşağın davranış aktında iştirak edən determinantları,

uşağın hərəkətlərinə onların təsir imkanlarını müəyyən etmək olar. Məsələyə aydınlıq gətirmək üçün əvvəlcə davranışın mənşəyinin öyrənilməsinə həsr edilmiş tədqiqatları nəzərdən keçirdik. Onların içərisində J. Qodfruanın davranışın psixofizioloji əsaslarının öyrənilməsi ilə bağlı araşdırmalar diqqətimizi cəlb etdi (1).

J. Qodfrua davranışın təbii mənşəyini anadangəlmə və qazanılmış tələbatlarla əlaqələndirir. O hesab edir ki, demək olar, bütün aspektlərdə insan davranışı, bir tərəfdən əjdadların qazandıqları, digər tərəfdən psixikaya mühitin fiziki və sosial təsirləri fonunda baş verir. Anadangəlmə adlandırdığımız reaksiyalar hər bir hərəkətdə var, lakin bu hər bir fərddə eyni səviyyədə və xarakterdə olmur. Əgər aqressivlik insanın anadangəlmə xüsusiyyəti olsaydı, yəqin ki, dünya çoxdan məhv olardı. Əksinə, bu keçici bir davranış aktıdır. Belə olmasaydı aqressiyanın aradan qaldırılması üçün yollar düşünməyə, metodlar işləməyə, proqramlar hazırlamağa ehtiyac da qalmazdı.

Ayrı-ayrı fərdlərdə dominantlıq edən anadangəlmə bioloji xüsusiyyətlər də var. Bu xüsusiyyətlər insanın rol davranışlarının inkişafında aparıcı təsir mənbəyidir. Həmin təsirlər kompleks formada da baş verə bilər.

Canlı sistemlərin bioloji varlığı üçün ilk əhəmiyyət kəsb edən davranış forması – **tropizmdir.** Bu, bitkilərə xas olan cavab reaksiyasıdır. Növbəti forma - **taksislərdir.** Əsəb sisteminə malik olmayan birhüceyrəlilərə xas olan, fiziki qıcıqlayıcılara qarşı eyniadlı hərəkətlər kimi baş verən taksislər də sadə avtomatik reaksiyalardır. **Reflekslər** davranış üçün daha mürəkkəb reaksiyalardır. Təbii və sosial faktorlarla bağlılığına görə reflekslər şərti və şərtsiz olmaqla iki yerə bölünür. “Şərtsiz reflekslər anadangəlmədir. Şərti reflekslər sonradan, insanın həyat təcrübəsində qazanılır. Canlı, nə qədər ki, alovun yandırıcı təsirini hiss etmir, ondan qorxmur. Bu qıcığın təsiri ilə üzləşdikdə artıq ondan çəkinir, özünümüdafiə refleksi oyanır. Şərti refleks müvəqqəti xarakter daşıyır. Təsir itdikdə şərti refleks sönür, lazım gəldikdə yenidən baş qaldırır. Həmin ardıcıllıqla orqanizmlə ətraf aləm qıcıqlayıcıları arasında reflektor əlaqələr davam edir” (3, 231).

İnsan öz fəaliyyətində hansısa işi icra edərkən onun başvermə mexanizmləri, reflekslərin şərtləndirmə xüsusiyyətləri haqqında düşünmür. Halbuki hər bir fərd özünün erkən dövrdəki refleksiv hərəkətlərində müşahidə olunan ilk və sadə əməliyyat köçürmələrindən başlayaraq avtomatlaşmış, vərdişlərə çevrilmiş adəti reaksiyalardan refleksiv inkişafa qədər uzun bir yol keçir. Bu mexanizmlər hər bir insanın iş qabiliyyətinin ilkin və əsas tənzimləyicisidir. Müəyyən inkişaf dövründən sonra bu adəti reaksiyaların baş verməsi üçün artıq gündəlik hərəkətlərə qabaqcadan düşünülmüş nəzarət tələb olunmur. Davranışda həmin reaksiyaların baş verməsi qayda halını alır.

J. Qodfrua refleksləri sadə, stereotip reaksiyalar kimi səciyyələndirir. “Davranışın belə forması, məsələn, quşların yuva tikməsinə bənzəyir. Həmin növün bütün təmsilçiləri yuvanı tamamilə eyni cür tikirlər. Belə stereotiplərə arıların həyatının cəmiyyət halındakı təşkilini, qazların və lasos balıqlarının miqrasiyasını da göstərmək olar” (1, 33).

Reflekslər davranışda reaksiyalar formasında özünü göstərir. Reaksiya daha geniş anlayışdır. Əgər refleksin baş verməsi üçün, heç olmasa, primitiv əsəb sistemi tələb olunursa, (məsələn, toxunma zamanı mimozanın yarpaqlarının yığılması, günəbaxanın mexaniki olaraq başını çevirməsi reaksiyadır), reaksiyadan bəhs edərkən onun fiziki, bioloji, kimyəvi təbiətindən danışmalı oluruq. “Psixologiyada reaksiya anlayışına insanın davranışı ilə bağlı olan məsələlər daxil edilir. Orqanizm hüceyrələrdən qurulub. Bu hüceyrələrin hər birində reaksiya vermək qabiliyyəti vardır. Psixologiyada reaksiyaya bu mənada yanaşılır. Davranış aktlarını hər biri refleks kimi deyil, reaksiya kimi qəbul olunur. Digər tərəfdən, “reaksiya” sözünə biz insan davranışının sosial təzahür formalarını da daxil edirik” (2, 239).

Davranışın tənzimlənməsində mühüm rolu olan daha bir amil - **instinktlərdir.** N.Y. Vaytonis, N.N. Ladıgina-Kots, T.Q. Basura, L.A.Orbeli, R.M. İerks, V. Köler, P. Gilom, T. Meyerson və b instinktiv davranışla bağlı aparılmış tədqiqatlara əsaslanaraq bu qənaətə gəliblər ki, instinktlər kordur. İnstinkt qıcıqlayıcının olmamasını hiss etmir, özünün oyanmış halında, lazım gəldikdə hərəkətin tamamilə başqa hissəsinə köçürülərək davam edir. İnstinktiv reaksiyanın tərkibindəki hərəkət ardıcıllığını əvvəlcədən hesaba almaq, ayırd etmək mümkün olmur (3).

Davranışın təbii amillərindən bəhs edərkən heyvan və insanların sosial davranışına daha çox yaxın olan **imprintinqə** də diqqət yetirmək lazım gəlir. İmprintinqin izahında Avstriya etioloqu K. Lorensin rolu böyükdür. O, inqubatorda yetişdirilmiş qazların öyrənilməsi ilə məşğul olarkən maraqlı hadisə ilə üzləşir. Cücələr yumurtadan ilk çıxdıqları vaxt öz analarını deyil, Lorensi görürlər. Balalar qaz dəstəsi ilə birləşmək əvəzinə hər yerdə Lorensi izləyirlər. Özlərini elə aparırlar, sanki Lorens onların anasıdır. Bioloji anaları ilə üzləşdikdə isə ona əhəmiyyət verməyərək Lorensi müdafiə edirlər. Məsələnin daha maraqlı tərəfi bu qazların böyüyərək cinsi yetkinliyə çatdıqları zaman baş verir. Onlar cütləşmək üçün öz növündən olan nümayəndələrə qətiyyən maraq göstərmədən insana oxşar obyekt axtarırlar. K. Lorens bu hadisəni qaz balalarının yumurtadan çıxdıqları vaxt üzləşdikləri ilk hərəkət edən obyektə bağlanmaları ilə əlaqələndirdi (4).

İmprintinqin mexanizmində həm anadangəlmə, həm də qazanılmış davranış elementləri var. Apardığımız təhlil göstərir ki, təkamülün (əgər məsələyə təkamül nəzəriyyəsi kontekstindən baxsaq) yuxarı qatlarına, ali sinir sisteminə malik olan canlılar səviyyəsinə qalxdıqca, davranışı nizamlayan determinantlar sırasında qazanılmışların sayı da artır. Əslində, səmərəli imprintinqin xas olduğu növlərdə (quş, heyvan) dişi, erkək, eləcə də sosial və cinsi davranış genetik amillərlə bağlı olur. Onun istiqaməti isə həyatın ilk anlarında toplanmağa başlayan təcrübədən, yəni qazanılmışlardan asılıdır. İnsanların rol – davranışda da özünü göstərən ilk və əsas fərqlər – cinsi fərqlərdir. Hərəkətlərin, reaksiyaların, jest və mimikanın ilk əlamətləri bu baxımdan fərqləndirilir. Bununla bağlı olaraq Ə.Ə. Əlizadə yazır: "Sosial-cinsi rollar kontiniumunda qız (qadın) və oğlan (kişi) rolları önəmli yer tutur. Bir cəhət aydındır: Qız və oğlan rolları faktiki olaraq XX əsrdə meydana gəlməyib, onun tarixi bəşəriyyətin tarixi qədər qədimdir. Cinsi identifikasiya cinsi rolların ana xəttini təşkil edir. Müəyyən edilmişdir ki, uşaqlar 2-3 yaşlardan artıq cinslərin rollarını anlamağa başlayırlar" (5, 33-34).

Bəzi növlər üçün imprintinqdən daha yüksək səviyyəli davranış forması xasdır. Bu, instinktiv davranışın **öyrənmə** yolu ilə formalaşmış səviyyəsidir. Məsələn, qorxunc pələngin öz balasına göstərdiyi ana nəvazişi, qaranquşun yuva qurması, meymunun qoza sındırması, çubuqla ağac dəliyindən qarışqa çıxarması, ağacdan meyvə salması və s. kimi davranış formaları yalnız yüksək səviyyəli növlərə aiddir. Bunların hər birində öyrənmə elementləri var. Canlılarda öyrənmə qabiliyyətinə yalnız ali sinir sisteminə malik olan növlərdə rast gəlinir. Öyrənmə nəticəsində yaranan davranış digər, instinktiv davranışa aid etdiyimiz anadangəlmə stereotiplərlə qurulan davranış aktlarından fərqlənir. *İnstinktiv davranışın xas olduğu növlərdə yaşadığı mühitə yüksək səviyyəli uyğunlaşma, adaptasiya qabiliyyəti olur. Öyrənmə qabiliyyətinin dominant olduğu növlər isə yeni situasiyaya, şəraitə alışa bilirlər.* Belə situasiyalarda onların adaptasiyasına imkan verən yeni davranış aktları yaranır. İnsan fərdində davranışın qurulmasında müstəsna rolu olan, sosiallaşmanı təmin edən öyrənmənin 3 səviyyəsi fərqləndirilir (6, 400).

Öyrənmənin daha yüksək səviyyələri, əqli nəticə və d. idrak əməliyyatları yalnız insana xas olduğundan növbəti təhlillər də insan davranışının nizamlanmasında rolu olan psixoloji determinatlarla bağlıdır. Bu sahədə aparılmış tədqiqatlar içərisində B.F. Skinnerin araşdırmaları xüsusi əhəmiyyət kəsb edir. B.F. Skinnerin davranışın determinantları ilə bağlı əsas fikri odur ki, insanların davranışı daxili faktorların (dərkolunmamış impulslar, arxetiplər, şəxsiyyət xassələri) mövcud olması ilə müəyyən edilir. "İnsan orqanizmi "qara qutu"dur. Burada saxlanılanları (motivlər, meyllər, münaqişələr, emosiyalar və s.) empirik tədqiqatlar sahəsindən kənarlaşdırmaq lazım gəlir. Orqanizmdəki dəyişmələr bizim insan fəaliyyəti haqqındakı təsəvvürlərimizdə heç nəyi dəyişmir. Bu, yalnız davranışın elmi təhlilinə əlavələrin olunmasına xidmət edir" (8, 336).

Bununla belə, B.F. Skinner daxili hadisələrin, yaxud "ali psixi proseslər" adlandırdığı təsirlərin mövcudluğunu tamamilə inkar etmir. Bütövlükdə B.F. Skinner davranışın ətraf mühit şərtlərini müəyyən etməli, əvvəlcədən aydınlaşdırmalı və nəzarət etməli olduğunu bildirir. "Davranışı başa düşmək - ona nəzarət etməkdir" (11, 337). B.F. Skinner hansısa azad iradənin, yaxud hər hansı başqa "şüurlu" hadisənin əleyhinədir. B.F. Skinnerə görə, insan davranışı haqqında elm prinsipcə faktlara əsaslanan digər hansısa bir təbiət elmlərindən heç nə ilə fərqlənmir: burada eyni məqsəd var - öyrənilən hadisə barədə

bilgiyə sahib olmaq və davranışa nəzarət etmək.

K.H. Rubin, K.S. Vatson, T.V. Cambor (9), F. Kanfer, P. Karoli (10) də eyni mövqedən çıxış edərək uşaqların davranışının nizamlanmasında həyati situasiyalarda fəallaşan psixi proseslərin rolunu önə çəkirlər. Burada əsas determinəedici amil olaraq mühit təsirlərinə adekvat reaksiyanın verilməsi vurğulanır.

A.N. Leontyevin fikirləri də bu yanaşmalara yaxındır. A.N. Leontyev heyvanların bioloji quruluşundan fərqli olaraq insan varlığının şüurlu davranışa sahib olmasını onlara xas olan psixi proseslərin inkişaf səviyyəsi ilə əlaqələndirir: "İnsan öyrənməyə psixikanın insanlaşmış psixi prosesləri sayəsində nail olur. İnsanlaşmaqla bağlı professor Peronun o fikirləri ilə razılaşıram. Pero öz mühazirələrində bildirirdi ki, doğulduğu anda uşaq hələ insanlığa namizəddir, ancaq o təcrid edilmiş şəraitdə insan ola bilməz: ona insanlarla ünsiyyətdə olaraq insanlığı öyrənmək gərəkdir" (11, 188).

A.N. Leontyev uşaqda ictimai varlıq hesab etdiyimiz insana xas olan psixi funksiyaların və qabiliyyətlərin inkişafının tamamilə spesifik formada - öyrənmə və mənimsəmə prosesində baş verdiyini bildirir. "Uşaq yalnız insan obyektləri dünyası qarşısında "dayanmır". Yaşamaq üçün o, bu dünyada fəal və adekvat şəkildə hərəkət etməlidir. Ancaq bu həmin spesifik, öyrənmə, mənimsəmə, yaxud sahibolma adlandırdığımız prosesin yalnız bir şərtidir. Digər şərt ondan ibarətdir ki, uşağın insan obyektləri aləminə münasibəti onun insanlara münasibəti ilə tənzimlənir. Bunun üçün uşaqlar ünsiyyətə girməlidirlər" (11, 187). V.S. Muxina bu prosesin əlverişli qaydada baş verməsinin birinci amili kimi məktəbəqədər yaşda davranış motivlərinin yaranmasını göstərir. Bu motivlərin məzmunu məktəbəqədər yaşda sürətlə dəyişir. Əvvəlcə onlarda davranışı nizamlayan "yaşlılar aləminə maraq" motivləri yaranır. Sonra bu "oyun motivləri" ilə zənginləşir. 3 yaşdan başlayaraq bu motivlərə də "yaşlılarla və həmyaşıdlarla uzun müddət bir yerdə olmaq və qarşılıqlı münasibətləri davam etdirmək" motivləri əlavə olunur (12, 153).

Bu motivlər içərisində V.S. Muxina uşağın şüurlu davranışının əsas təzahürü sayılan "özünüsevərlik və özünütəsdiqetmə" motivini fərqləndirir. "Bu motivlərin çıxış nöqtəsi erkən uşaqlığın sonudur. Məktəbəqədər yaşda uşaq özünü başqa insanlardan ayırır, yaşlıya münasibətdə onun davranışından nümunə götürür. Özünütəsdiqetmənin daha bir nümunəsi oyunlarda baş rolları oynamağa cəhdetmədir. Təcrübə göstərir ki, onlar uşaq rollarını oynamaq istəmirlər. Uşaqlara həmişə hörmət göstərdikləri və avtoritet saydıqları yaşlıların rolu daha cəlbedici görünür" (12, 154).

Məktəbəqədər yaşın sonunda uşaqlarda dərketmə və yarış motivləri formalaşır. Bu motivlər uşağın rol davranışını kifayət qədər yaşlıların davranışına yaxınlaşdırır. Davranışın nizamlanmasının iradi imkanları artır, sosial təcrübə genişlənir, oyunda, əməkdə, təlimdə lazım olan rolların öhdəsindən gəlir, bu rollara müvafiq davranış nümayiş etdirirlər: "öyrənən uşaq" (dinləmək, tapşırıqları icra etmək, hərəkətləri yerinə yetirmək, şəkil çəkmək, fiqur düzəltmək, mahnı oxumaq, rəqs etmək və s.), "işləyən uşaq" (geyinmək, soyunmaq, yemək, yuyunmaq, oyuncaqları, əşyaları, otağı səliqəyə salmaq, anaya kömək etmək), "oynayan uşaq" (ana, ata, uşaq, həkim, sürücü, əsgər, kapitan, poçtalyon, satıcı, artist, müəllim) rollarını icra etmək. Beləliklə də, məktəbəqədər yaşın sonunda biz insan fərdində yaranan davranış imkanlarının bütöv bir sistemini görürük.

Ə.S. Bayramov və Ə.Ə. Əlizadə insan həyatında sosial və təbii olanların qarşılıqlı əlaqəsini ilk növbədə psixi həyatla əlaqələndirirlər. "İnsanın psixi həyatı sosial xarakter daşıyır. Həmin fakt istər ümumi psixologiya üçün, istərsə də yaş psixologiyasından tutmuş əmək psixologiyasına qədər psixologiya elminin, demək olar ki, bütün sahələri üçün fundamental əhəmiyyətə malikdir. L.S. Vıqotski bu cəhəti izah edərək göstərirdi ki, uşağın mədəni inkişafında hər bir funksiya iki dəfə, iki planda - əvvəlcə sosial, sonra psixoloji planda, əvvəlcə insanlar arasında interpsixi, sonra isə uşağın daxilində intrapsixi kateqoriya kimi meydana çıxır" (13, 8).

Nəhayət, fikrimizi A. Banduranın davranışın daxili biheviorizmi haqqındakı bir tezisi ilə tamamlamaq istəyirik: "Davranışın qarşılıqlı təsirə malik olan inam və gözləmə kimi daxili determinantları, rəğbətləndirmə və cəzalandırma kimi xarici determinantları yalnız davranışın özünə deyil, eləcə də sistemin müxtəlif sahələrinə təsir göstərir" (16, 377).

A. Banduranı işləyib hazırladığı davranış triadasında ona təsir göstərən mühit amilləri öz

əksini tapsa da, o, həmçinin insan fəaliyyətinin nəticəsi kimi yaranır. Yəni, insanlar hansısa formada öz davranışına özləri təsir göstərirlər.




**Şəkil 1. Davranışını şərtləndirən faktorların qarşılıqlı əlaqəsi**

Yenidən Eldar haqqındakı fikirlərimizə qayıdaq. Artıq davranış barədə müəyyən biliklər əldə etdikdən sonra davranış pozuntusunun yaranma səbəblərini harada axtarmalı olduğumuzu da təyin edə bilərik. Bu, uşağın fizioloji problemlərindən başlayaraq fərdi quruluşuna: temperament tipi, funksional problemlər (nevroz, hiperaktivlik və s.), ödənilməmiş tələbatlar, assosial maraqlar, valideynlərin tərbiyə üslubunun düzgün seçilməməsi səbəbindən mühitə qarşı qisasçı, qərəzli münasibət, yaxud təcrübəsizlik ola bilər.

Bəzi valideynlər Eldar kimi xolerik tipli uşaqların davranışına ipə-sapa yatmayan, qeyri-normal, yaxud pozulmuş davranış kimi yanaşırlar. Yaxud əksinə, melonxolik tipli uşaqlar ətrafdakılar tərəfindən tənbəl, qaradinməz, uğursuz şəxs kimi qiymətləndirilir. Əsəb sisteminin pozulması hallarında uşaqlarda daxili gərginliklərdən yaranan dağınıq, qarmaqarışıq, vurnuxma xarakterli davranış yaranır. Diqqətini toplaya bilmədiklərindən tez-tez fəaliyyəti dəyişir, bir yerdə qərar tuta bimirlər. Uşaqlarda ruhi xəstəliklərdən (şizofreniya, epilepsiya, autizm, mutizm) yaranan neqativizm də davranış pozuntusuna səbəb olan amillərdir. Məsələn, mutizm diaqnozu qoyulmuş İranə adlı qızla apardığımız iş zamanı aydın oldu ki, o, hələ də pampersdən istifadə edir. Bu ananı çox təsirləndirir, İranənin hərəkətini özünə qarşı hörmətsizlik və qəddarlıq kimi qəbul edirdi. Haqlıdır! 5 yaşlı uşağın sadə bir fiziki tələbatını ödəmək üçün özünə zəhmət verməməsi, zəruri özünəxidmət normalarına əməl etməməsi, əlbəttə ki, davranış pozuntusudur.

Bunlarla yanaşı, tərbiyənin düzgün qurulmaması səbəbindən yaranan davranış pozuntuları da vardır ki, uzunmüddətli korreksiyaların və valideynlərlə əlaqəli işin köməyi ilə onu nizama salmaq mümkün olur. Bizim Eldarla apardığımız korreksiya işi bu istiqamətdə oldu. Valideynlərlə söhbət, sorğu, proyektiv metodikalar vasitəsi ilə Eldarın temperamentində təmiz xolerik tip, xarakterində eqoizm müəyyənləşdirdik. Bununla belə Eldar yaşıdları ilə müqayisədə yaxşı yaddasaxlama, ümumiləşdirmə, təsviretmə və liderlik qabiliyyətinə malik idi. Ailədə bir övlad olması, nənə-babanın yanında ərköyün böyüməsi də Eldarın davranış pozuntusuna səbəb olan amillərdən idi. Bütün bunlar, psixoloji korreksiya işinə kompleks yanaşma tələb edir. Əks halda məktəbəqədər yaş dövründə formalaşmalı olan rol davranış möhkəmlənməz, uşaq məktəb həyatında bir sıra ünsiyyət, münasibət, həmçinin koqnitiv problemlərlə üzləşə bilər.

XXI əsr, məlum olduğu kimi, cəmiyyətin həyatına bir çox yeniliklər gətirib. Bu yeniliklər içərisində dünya mədəniyyətinə inteqrasiya öndə durur. R.İ. Əliyev, sürətlə qloballaşan müasir cəmiyyətdə yaşayan, hətta yaşlı insanların özünün maddi-mənəvi tələbatlarını ödəmələri üçün özünün təbii quruluşunu öyrənərək müasir dövrün tələblərinə uyğunlaşdırmağı çıxış yolu kimi göstərir. “Müasir dövrdə insanların koqnitiv fəallığı durmadan artır. Təbii ki, insan fəallığı bütün dövrlərdə olmuşdur, lakin müasir dövrdə həyatın özünün ritmi, sürəti artdığından insanlar özünütəsdiq və özünüreallaşdırmaq üçün həyatın tələb etdiyi sürətə uyğunlaşmaq məcburiyyətindədir” (15, 13).

Bu, çətin prosesdir, lakin insanın özünüyaşatması, sosial mühitə adaptasiyası baxımından qaçılmaz yoldur. İnsanın öz davranışını mühitə uyğunlaşdırmasında baş verən proseslərin qanunauyğunluqlarını, sosial şərtlərini öyrənmək həmişə psixologiya elminin qarşısında duran mühüm vəzifələrdən biri olmuşdur. Bunları nəzərə alaraq L.Ş. Əmrahlı bildirir ki, “hazırda psixologiyanın təbiət elmləri ilə əlaqələri intensivləşib, yeni inteqrasiyalı sahələr inkişaf etməyə başlayıb. Bu sahədə daha uğurlu nəticələrin əldə olunması üçün psixologiyanın fizika, kim-

ya, biologiya, təbabət, tarix, etnoqrafiya, antropologiya, linqvistika kimi elmlərlə qarşılıqlı əlaqədə inkişafı yolları araşdırılır. Çünki bu zərurət özünü aydın şəkildə göstərməkdədir" (16, 119).

Nəticə olaraq bunları qeyd edə bilərik ki, davranış aktı bioloji, fizioloji, psixoloji faktorların qarşılıqlı əlaqəsində formalaşan, təbii və sosial amillərlə şərtlənən mürəkkəb psixoloji hadisədir. Bu hadisə, bir tərəfdən insan fərdinin iradi imkanları ilə deyil, onun təbii quruluşu ilə bağlı olub onun qanunauyğunluqlarına tabe edilmiş reaksiya, refleks, instinktlərlə nizamlanır. Digər tərəfdən, insanlarla birgə yaşamaq, insan cəmiyyətində özünü təsdiq etmək tələbatı sosial faktorların təsiri ilə, şüurlu şəkildə nizamlanır. Burada mühitin sosial şəraiti, mədəniyyət, yaşlıların tələb və tapşırıqları, gözləmələr, sosial qiymətləndirmələr (attidyüd) mühüm rol oynayır. Uşaqların təlim-tərbiyəsi isə məşğul olan, onun davranışının nizamlanmasına nümunə göstərən hər bir kəs davranışın əsasında duran bu faktorların mahiyyətini bilməli, uşağın fərdi quruluşunu, daxili aləmində baş verən təbii prosesləri nəzərə alaraq yaşına, cinsinə və sosial təcrübəsinə müvafiq rol-davranışlarını mənimsəmələrinə çalışmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda məktəbəqədər yaşlı uşaqlarda rol davranışın inkişafının əsas determinantları, təbii və mühit faktorlarının qarşılıqlı əlaqəsi təhlil edilir, rol davranışın formalaşdırılmasının yolları nəzəri baxımdan ümumiləşdirilir. Məktəbəqədər tərbiyə sistemində daha çox sosial faktorlarla, ailə tərbiyəsi ilə əlaqələndirilən davranış pozuntularının yaranma səbəbləri izah olunur. Bu sahədə işlənmiş nəzəriyyələr əsasında problemin aradan qaldırılması istiqamətləri göstərilir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Məqalədə qoyulmuş məsələlər didaktik üslubda işləndiyindən materiallardan səmərəli istifadə etmək, psixoloji təcrübədə yaranmış problemlərin həlli üçün tətbiq etmək mümkündür. Burada qoyulmuş məsələlər, verilmiş nümunələr əsasında davranışın psixoloji problemlərini həll etmək, valideynlərə tövsiyələr vermək olar.

## ƏDƏBİYYAT


1. Годфруа Ж. Что такое психология: Том 1: М.: Мир, 1992.
2. Əmrahlı L.Ş. Eksperimental psixologiya. Bakı: ADPU, 2008.
3. Развитие поведения и психики животных. Образ жизни и психика // http://bookap.info
4. Открытие импринтинга Лоренсом // http:// sergennifer.com
5. Ə.Ə. Əlizadə. Uşaq və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı: ADPU, 2009.
6. Фресс П., Пиаже Ж. Экспериментальная психология. М.: Прогресс, 1966. Флейфелл Дж. Х. Генетическая психология Жана Пиаже. М.: Просвещение, 1967. Научающе-бихевиоральное направление в теории личности: Б.Ф.Скиннер// Теории личности. М.-СПб: Питер, 1997.
7. Rubin K.H., Watson K.S., Jambor T.W. Free play behavior in preschool and kindergarten children // Child Devel., 1987.
8. Kanfer F. & Karoly P. Self-control. / A bihavoristic excursion into the lion, s den. Behavior Therapy, 1972, № 3
9. Леонтьев А.Н. Проблемы развитие психики. М.: МУ, 1972.
10. Мухина В.С. Психология дошкольника. М.: Просвещение, 1975.
11. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qap-poliqraf, 2003.
12. Бандура А.,Роттер Дж. Социально-когнитивное направление в теории личности // Теории личности. М.:- СПб: Питер, 1997.
13. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007.
14. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007. http:// www. psychology.comhttp: //dic.academic.ru/.

19 http:// www. bestlibrary. ru.


**О. Ализада**

## ДЕТЕРМИНАНТЫ РОЛЬ-ПОВЕДЕНИЕ ДОШКОЛЬНИКОВ

### *РЕЗЮМЕ*

В статье мы проследили за развитием основных концепций о поведение. Объясняеться, что в поведении живых существ основную роль играет тропизм, такцисс, рефлекс, реакция, инстинкт, импринтинг и т.д. Они основные детерминанты поведение простых существ. А основные регулирую-

щие детерминанты поведений человека (ребенка) это рефлекс, реакция, инстинкт, на учение, потребность и мотив. Показано, что в сущности почти во всех аспектах человеческого поведения постоянно проявляется. С одной стороны-основа, унаследованная от предшествующих поколений, а с другой все множество непрерывных воздействий физической и социальной среды. Врожденное и приобретенное присутствуют в каждом действии ребенка. Точнее, человек - это существо, находящееся во власти инстинктов и врожденных наклонностей, которые не в силах преодолевать, то что можно ожидать при нарушении поведения. Если же удастся доказать, что воспитание правильного поведения, начатое с детства и позволяющее индивидууму глубоко познать самого себя, дает ему возможность понять причины, побуждающие его к действиям, и сохранять власть над собой. Самое важное заключение в статье то, что лишь в случае объединения внешних и внутренних факторов может произойти запуск целенаправленного поведения. В результате создается впечатление, что ребенок может реагировать на свое поведение, если все развито нормально.

**O. Alizada**

**DETERMINANTS ROLE-BEHAVIOR OF PRESCHOOLS**

***SUMMARY***

In the article, we chased the development of the basic concepts of behavior. It is explained that in the behavior of living beings, the main role is played by tropism, tacticism, reflex, reaction, instinct, imprinting, etc. They are the main determinants of the behavior of simple beings. And the main regulatory determinants of human behavior (child) is a reflex, reaction, instinct, learning, need and motive. It is shown that in essence almost in all aspects of human behavior are constantly manifested. On the one hand, the basis inherited from previous generations, and on the other hand, all the multitude of continuous influences of the physical and social environment. Congenital and acquired are present in every action of the child. More precisely, a person is a being in the power of instincts and innate inclinations that can not overcome, then what can be expected in case of behavioral disturbance. However, it can be proved that the education of the rules of behavior, begun from childhood and allowing an individual to know himself deeply, gives him an opportunity to understand the reasons that motivate him to act, and to retain power over himself. The most important conclusion in the article is that only in the event of a combination of external and internal factors the launch of purposeful behavior can occur. As a result, it seems that the child can react to his behavior, if everything is developed normally.

**Redaksiyaya daxil olub: 17.10.2017**